Tofiq Mustafazadə - 70

# Daxili mədənİyyətini və ləyaqətini hər məqamda qoruyan müdrİk tarixçi



Hər bir insan yaşının ahıl çağında keçdiyi həyat yoluna nəzər salarkən, bütün ömrü boyu münasibətdə olduğu insanları xatırlayarkən, hadisələrə daha düzgün qiymət verir, yaxşını və pisi daha obyektiv qiymətləndirmək iqtidarında olur. Altmış illik həyat təcrübəmdə bir çox taleyüklü hadisələrlə üzləşmişik: Tələbəlik illəri, Qarabağ müharibəsində könüllü iştirak dövrü, məcburi köçkün həyatı, AMEA-da işlədiyim illər şəxsən mənə haqq verir ki, yaxşını pisdən seçim və Respublikamızda barmaqla sayılan, lakin öz mükəmməl həyatları ilə çoxlarına (gələcək nəslə) yaxşı nümunə olan insanlar haqqında düşüncələrimi qələmə alım. Belə insanlardan biri də, çox hörmətli müdrik tarixçi Tofiq Mustafazadədir. T.e.d., professor, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı Tofiq Mustafazadənin çox sadə və sadə olduğu qədər də şərəfli bir tərcümeyi-halı var: Tofiq Teyyub oğlu Mustafazadə 1949-cu il iyu nun 1-də Azərbaycan Respublikası Şabran rayonunun Zeyvə kəndində anadan olmuşdur. O, 1966-cı ildə orta məktəbi bitirdikdən sonra BDU-nun tarix fakültəsinə daxil olmuş, 1971-ci ildə fərqlənmə diplomu ilə oranı bitirmişdir. Universitetdə təhsil illərində yalnız əla qiymətlər aldığına görə K.Marks adına təqaüdə layiq görülmüşdür. Tofiq Mustafazadənin qayğısız uşaqlığı, qaynar gəncliyi və mənalı ahıl həyatı olub. Onun özünəməxsus dünyası digərlərindən fərqlənib və bu mükəmməllik ona hörmət qazandırıb.

Öz həyatını elmə, gənc nəslin təlim-tərbiyəsinə həsr edən Tofiq Mustafazadə 1971-1974-cü illərdə Azərbaycan EA "Yaxın və Orta Şərq xalqları" İnstitutunda laborant, ADU-nun ümumi tarix kafedrasında baş laborant, Sumqayıt şəhər 16 saylı orta ümumtəhsil məktəbində, daha sonra isə şabran rayonunun Sədan kənd 8-illik və Şabran şəhəri 3 saylı 8-illik məktəblərində tarix müəllimi vəzifələrində çalışmışdır.

Dərin düşüncəsi və orijinal təfəkkür tərzi ilə seçilən Tofiq Mustafazadə 1975-1977-ci illərdə Azərbaycan EA Tarix İnstitutunun əyani aspiranturasında təhsil almış, 1977-ci ildən həmin İnstitutun "Azərbaycanın Rusiya və Qafqaz xalqları ilə əlaqələri tarixi" şöbəsinə kiçik elmi işçi vəzifəsinə işə qəbul olunmuşdur.

Öz sözünü vaxtında və yerində deməyi bacaran hörmətli Tofiq müəllim 1986-cı ildə böyük elmi işçi, 1993-cü ildən aparıcı elmi işçi vəzifələrində çalışmışdır. İşlədiyi vəzifədə özünü alicənab bir ziyalı kimi aparan, sadəliyi, qətiyyəti, təmkinliyi ilə seçilən hörmətli alim 1996-2011-ci illərdə yuxarıda adıgedən şöbənin müdiri vəzifəsində işləmişdir. O, 2011-ci ildə yeni yaradılmış "Ümumi tarix" 2019-cu ildən isə "Azərbaycanın beynəlxalq əlaqələri tarixi" şöbəsinə rəhbərlik edir.

Müasir Azərbaycan tarixində öz dəsti-xətti ilə seçilən Tofiq Mustafazadə 1980-ci ildə namizədlik, 1992-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. Mənalı elmi yaradıcılığı böyük rəğbətlə qarşılanan alim 1999-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya komissiyasının qərarı ilə professor elmi adına layiq görülmüşdür.

T.e.d., professor Tofiq Mustafazadənin zəngin elmi yaradıcılığının bir qismini pedaqoji fəaliyyəti təşkil edir. O, uzun illər BDU-nun tarix fakültəsində və Lənkəran Dövlət Universitetində əvəzçiliklə professor vəzifəsində çalışmışdır. Vətənpərvər alim Tofiq Mustafazadə 1993-cü ildən "Azərbaycan Tarix Qurumu" ictimai birliyinin sədridir.

Keçdiyi zəngin elmi yaradıcılıq yolu, onu mükəmməl bir tarixçi kimi tanıtmış və oxucularına sevdirmişdir. Onun bu və ya digər qiymətli əsərləri qədirbilən İnstitut rəhbərliyi və dövlət başçısı tərəfindən layiqincə qiymətləndirilmiş və 2012-ci il 25 may tarixində Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Mükafatı laureatı adına layiq görülmüşdür.

220-dən çox elmi əsərin və metodik vəsaitin, o cümlədən 10 monoqrafiyanın müəllifi olan professor Tofiq Mustafazadə uzun illər Bakı, Moskva, Sank-Peterburq, Həştərxan, İstanbul arxivlərində və kitabxanalarında elmi axtarışlar aparmışdır. Hazırda da bu istiqamətdə fəaliyyətini davam etdirir. Professor Tofiq Mustafazadənin elmi-tədqiqat fəaliyyəti başlıca olaraq üç istiqamətdə aparılmışdır: 1. Azərbaycanın Rusiya və Osmanlı dövlətləri ilə münasibətləri; 2. Azərbaycan xanlıqlarının tədqiqi; 3. Ümumi tarix.

Birinci istiqamət üzrə rus-türk münasibətlərində Azərbaycanın yeri, Azərbaycan torpaqlarının 1722-1735-ci illər Rusiya və Osmanlı imperiyaları işğalı dövründə vəziyyəti, sovet dövründə diqqətdən kənarda qalmış Türkiyə-Azərbaycan münasibətləri, dövrün rus və osmanlı mənbələrinin müqayisəli təhlili, onun elmi yaradıcılığında əsas yer tutur. Monoqrafiyalara Rusiyanın müxtəlif arxivlərində saxlanılan sanballı sənədlər əlavə olunmuşdur. Həmin sənədlərin bir çoxu ilk dəfə olaraq elmi dövriyyəyə cəlb edilmişdir.

Çox hörmətli professorun yaradıcılığının ikinci istiqaməti xanlıqlar dövrünü əhatə edir. "Quba xanlığı", "Qarabağ xanlığı", "Azərbaycan xanlıqlarının qısa tarixi" və digər kitablarında müəllif uzun illər ərzində Azərbaycan, Rusiya və Türkiyə arxivlərindən topladığı materiallar, habelə tarixi mənbələrdən əldə etdiyi faktlar əsasında xanlıqların ərazisi, təsərrüfat həyatı, sosial-iqtisadi münasibətləri, dövlət idarəçiliyi, hərbi işi, daxili və xarici siyasəti haqqında geniş və əhəmiyyətli məlumat vermişdir. Üçüncü istiqamət üzrə professor Avropa diplomatiyasının "uydurma erməni məsələsi" və "Erməni məsələsinin" erməni terrorizminə çevrilməsi haqqında kitablar yazmış, bu kitablardan biri Varşavada ingiliscə nəşr olunmuşdur.

Yaradıcılığı təkcə elmi-tədqiqatla məhdudlaşmayan dərin düşüncəli professor Azərbaycanda ilk dəfə olaraq dörd cilddən ibarət "Ümumi tarix" kitabını yazmışdır. Həmin kitab Təhsil Nazirliyi tərəfindən ali məktəblər üçün dərs vəsaiti kimi təsdiq olunmuşdur.

Azərbaycan tarixinin tədqiqi təhlili və təbliğində, Azərbaycançılıq ideyasının formalaşmasında böyük xidmətlər göstərmiş Tofiq Mustafazadə müxtəlif problemlərə həsr olunmuş məqalələr yazmış, həm Respublikamızda, həm də xaricdə keçirilən beynəlxalq elmi konfranslarda (Moskva, Ankara, Daşkənd, Tallin, Təbriz, Kiyev, Bişkek, Qars, Eskişehir, Ərzurum, Mahaçqala Həştərxan və b.) iştirak etmiş, elmi kitablara ön sözü yazmış, bir çox namizədlik və doktorluq dissertasiyalarına rəhbərlik, bəzilərinə isə opponentlik etmiş, Azərbaycan xalqının vətənpərvər övladı və tanınmış alimi kimi Respublikamızın tarixi problemlərini istər ölkə daxilində, istərsə də xaricdə işıqlandırmışdır. Vətənpərvər alim çıxış etdiyi ölkələrdə Azərbaycanın tutduğu mövqeyi həmişə cəsarətlə müdafiə etmişdir. Çox hörmətli Tofiq Mustafazadənin məruzə və çıxışları müxtəlif öl kələrin alimləri tərəfindən maraqla dinlənilmiş və onun nüfuzunun tanınması kimi Cəlalabadda (Qırğızıstan) nəşr olunan "Akademik bakış" jurnalının hakim heyə tinə daxil edilmişdir. Professor Mustafazadə eyni zamanda, gənc alim lərin hazırlanması sahəsində səmərəli fəaliyyət göstərir. Tofiq Mustafazadənin rəhbərliyi altında 20 nəfər tarix üzrə fəlsəfə doktoru və 2 nəfər elmlər doktoru dissertasiyası müdafiə etmişdir. T.e.d., professor Tofiq Mustafazadə AMEA Tarix İnstitu tunun nəzdində fəaliyyət göstərən Müdafiə Şurasının daimi üzvü, Tarix problemləri üzrə Respublika Əlaqələndirmə Şurasının üzvüdür.

Çox hörmətli Tofiq müəllim Sizi doğum gününüz münasibətilə səmimi qəlbdən təbrik edir, uğurlu və şərəfli işinizdə müvəffəqiyyətlər, həyatınızda uzun-mənalı və sağlam ömür arzulayıram!!!

*Nazim* Məmmədov